

■ Vaqif YUSİFLİ
filologiya
elmləri doktoru

# "SİNƏMDƏ ÇIRPINAN QUŞSAN, ÜRƏYİM"

*(essevari bir yazı)*



Fəxrəddin Teyyub imzası oxuculara təzəliklə tanışdır və mən bu müəllifin son illərdə bir şair kimi özünü təsdiq etməyə çalışdığını, necə deyərlər, "mən də varam" iddiasını doğrultmağa cəhd etdiyini hiss edirəm. Amma o şeir yazmağa indi başlamayıb, gəncliyindən yol alıb bu aləmə, sadəcə olaraq çap olunmağa tələsməyib, qəzetlərdə, jurnallarda "tufan" qoparmaq istəməyib, şairliyi peşə vərdişinə çevirməyib. İlk kitabı ("İlk həsrətin ünvanı") beş il öncə işıq üzü görüb. İndi budur, nəfis şəkildə, 400 səhifədən artıq "Kölgəm mənim yol yoldaşım" şeirlər kitabı ilə oxucuların görüşünə gəlib. Təxminən 400-ə yaxın şeirin cəm olduğu bu toplu haqqında nə söyləmək olar? Təbii ki, Fəxrəddin Teyyubun bu kitabında bütün yazıların, adına şeir dediyi mətnlərin heç də hamısı eyni səviyyədə deyil. Bunu müəllifin özü də yaxşı bilir və heç bununla razılaşmasa da, şeirlər arasındakı poetik səviyyə imkan vermir deyək ki, nə varsa əliyyül-əladır. Bu gün hətta ən irəlici şairlərin şeirlərində də belə fərqli mənzərə nəzərə çarpır və deyək ki, bu, yaxşı hal olmasa da, hər halda, bir şairin poetik səviyyəsinin müxtəlifliyini açıqlaya bilir. Fəxrəddin Teyyubun yeni kitabında da yaxşı şeirlərlə bir sırada ortababları da yanaşıdır. Təbii ki, birincilər qalacaq, ikincilər isə unudulacaq.

Kitab müəllifin "Ürəyim" şeiri ilə açılır.

Ürək, qəlb, könül, klassik şeirdə isə bunlarla sinonim dil ("Dil ki, sərmənzili ol zülfü-pərişan olmuş"-Füzuli) şeiriyyət leksikonunda ən çox işlənən sözlərdir və bu kəlmə öz lüğəti mənasının sərhədlərini aşaraq xeyli dərəcədə məcaziləşib. Ürək deyəndə insan hisslərinin, duyğularının cəm olduğu mənəvi bir dünya nəzərdə tutulur və şairlərimiz o mənəvi dünyadan böyük dünyaya, işıqlı aləmə, necə deyərlər, köksün dar qəfəsindən kainata boylanmışlar. Ürəyi növbənöv təşbihlərlə "bəzəmişlər", kimi dəryaya, kimi dağa, kimi gözəl bir gülüstana, kimi də ocağa, tonqala, atəşə bənzədib.

***Hələ qalxacaqsan neçə yoxuşu,***
***İçimdə ölçüsən, məhək daşısan.***
***Elə bil mənimlə mehriban qonşu,***
***Elə bil, mənimlə yol yoldaşısan.***

***Qoymadın, göz dikəm özgə əllərə,***
***Suyum içimdədir, dənim içimdə.***
***Coşub çağlayırsan gündə min kərə,***
***Sahilsiz ümmansan mənim içimdə.***

***Həsrətə, hicrana tuşsan ürəyim,***
***Boynuna yükümü daşımaq düşüb.***
***Sinəmdə çırpınan quşsan, ürəyim,***
***Baxtına qəfəsdə yaşamaq düşüb.***

"Sinəmdə çırpınan quşsan, ürəyim"- Fəxrəddin Teyyubun şeirlərində əslində, bu ürəyin çırpıntılarını, aramsız döyüntülərinin eşidirik. Dünyamız üçün narahatlığını, insana, onun arzu və istəklərinə, qəminə, sevincinə şərik olmaq, özünün də mənəvi ağrılarını, hiss və həyəcanlar selini ifadə etmək həmin ürəyin payına düşüb.

Gəlin, o çırpınan ürəyin "ərazisinə" daxil olaq. Əvvəl Dərd adlı bir "ümmana" baş vuraq. Bu gün Dərddən çox yazırlar, kimi sevgilisinə yetə bilməmək, hicran alovlarında yanıb külə dönmək qəmini Dərd kimi ifadə edir, kimi anasızlığından, kimi atasızlığından, kimi də maddi sıxıntılarından dərdlənir. Amma ən böyük dərd Torpaq dərdidir. Vətənimizin bir parçasının işğal altında inləməsi ən böyük dərdimizdir.

***Yazı yazan, yazımı poz,***
***Məndə səbri, dözümü poz.***
***Torpaq dərdi nə ağ, nə boz,***
***Torpaq dərdi qara dərddir.***

Yaxşı deyib Musa Yaqub: "Bu dünyanın qara daşı göyərməz". Və mən Fəxrəddin Teyyubun bir neçə şeirində Musa Yaqub poeziyasına və şəxsiyyətinə böyük rəğbətin şahidi oldum. Qoy ana təbiətin gözəlliklərini vəsf etməyi, insandan təbiətə, təbiətdən cəmiyyətə boylanmağın sirlərini Musa Yaqubdan daha mükəmməl öyrənsin Fəxrəddin Teyyub.

O, lirik şairdir. Əcəba, görəsən bu dünyada lirik olmayan şair varmı? Böyük şairimiz Səməd Vurğun yazırdı ki: "Lirika öz nəğməsini oxuduqdan sonra o saat uçub gedən gəldi-gedər quşlara bənzəməməlidir. ..Lirik şeir, mahnı insan qəlbini dilə gətirməli, onun qəlbində yuva salmalı və zümrüd quşu kimi onu isindirməli, zəhmətdə, mübarizədə, kədərli və nəşəli dəqiqələrdə insana yoldaş olmalı, onda nəcib hisslər oyatmalı və beləliklə də, insanı yüksəltməli, onu daha güclü və mənəvi cəhətdən zəngin etməlidir". Bu sözlərin deyildiyi vaxtdan 61 il keçir, amma indi də lirika dediyimiz anlayışı dəqiq izah edir və Səməd Vurğun poeziya bulağından su içən hər bir şair, o cümlədən Fəxrəddin Teyyub bunu yaxşı anlayır. Fəxrəddinin "Pəncərəmə qonan quşa" adlı gözəl bir şeiri var və bu şeirdə şair, ana həsrətini lirik bir həyəcanla, həzin və kövrək notlarla belə ifadə edir:

***Səhər qondun pəncərəmə,***
***Danış görüm, sözünmü var?***
***İntizarda qoyma məni,***
***Məndə səbir, dözümmü var?***

***Gözlərində qəm görürəm,***
***Danış azar-bezarından.***
***Bəlkə xəbər gətirmisən***
***Həsrətimin məzarından.***

***Qəm istidi, vurub məni,***
***Kölgələnim, döşün çətir.***
***Nə olar, duy nisgilimi,***
***Uç, anamdan xəbər gətir.***

Ana həsrəti müəllifin başqa bir şeirində ("Anama oxşayan qadın") daha təbiidir. Şair bir qadını anasına oxşadır, deyir ki: Sən gözümdə pirə döndün, Nəfəsini dərim gedim"). Ümumiyyətlə, kitabda ən uğurlu, yaddaqalan şeirlər hansılardır,-sualını versələr, deyərəm ki, məhz ana haqqında olan şeirlərdir. Onun "Anam" rədifli şeiri mənə mərhum şairlərimiz-Məstan Günərin və Sərdar Əsədin ana həsrətini ifadə edən şeirlərini xatırlatdı.

***Bu nə ömür, nə gündü,***
***Şam idi, yandı, söndü,***
***Bir gün yumağa döndü,***
***Ürəyi ümman anam.***

***Sırğa olub öyüdü,***
***Neçə oğul böyüdüb,***
***Bir ömür qəm üyüdüb,***
***Mənim dəyirman anam.***

***Sevməzdi qəlb qıranı,***
***Ya da ara vuranı.***
***Sağaldardı yaranı,***
***Xoş sözlə loğman anam.***

***Yuxu gördüm, çin çıxdı,***
***Bir səs çıxdı, ün çıxdı,***
***Qış günündə gün çıxdı,***
***Əridi duman anam.***

Kitabda bir insanın həzin və kövrək duyğularının ifadəsi olan şeirlər daha uğurludur. Ona görə ki, bu qisim şeirlərdə lirik qəhrəman öz hisslərini gizlətmir, ürəyinin qapılarını oxucu üçün taybatay açır ki, buyurun, bu da mənim taleyim. Artıq ömrünün payız çağının astanasına qədəm qoymuş, amma ürəyi baharlı duyğularla dolu olan, gəncliyindən xoş xatirələr söyləyən, bir az da müdrikliyə can atan bir insan canlanır gözlərimizin qarşısında. Həyat gözəldir, insan bu həyatın həm acısını dadır, həm də şirinlmiyini. Amma yaşamaq eşqi, bir insan kimi arzularını gerçəkləşdirmək istəyi daha güclüdür. O, yaşına görə təqaüdə çıxmasına heyfislənir, "Mənə yaraşmırdı təqaüd hələ" deyir. O, təbiətdən, onun gözəlliklərindən zövq almağı bacarır. Amma qışdan sonra gələn baharın gecikməsinə bijanə qalmır. Deyir ki: "Ağaclar qanına qəltan olanda, Bahar gecikməsin, neyləsin axı?". Qızına gəlin köçəndə "Təzə ocağını get yandır, qızım! Söyləyir, xeyir-duasını əsirgəmir. Sevgi hisslərini ifadə edən də, hisslərini cilovlaya bilir, baş tutmayan sevdanın ağrı-acısına dözməyi özünə təlqin edir: "Demə sərhəd varmış, bağışla məni, İlk məhəbbətlə yaş arasında". Onun sevgi şeirləri yaşanılan hisslərin, duyğuların ifadəsidir və görürsən ki, qurama, süni sevgi deyil bu və insanın hansı yaşda olmasının əsl sevgi üçün heç bir əhəmiyyəti yox, təki ürəkdə gözəl hisslər olsun, o hisslər səni həyata bağlasın. O, həyatda, yaşadığı mühitdə rast gəldiyi ya da müşahidə etdiyi mənfiliklərə qarşı münasibətini də gizlətmir. Lap kəskinliklə olmasa da, nəsihətvari tonda ya da bir az ciddiyyətlə sözünü deyir:

***Haramı halala qatan görmüşəm,***
***Torpağı, Vətəni satan görmüşəm***
***Ümmandı, nə qədər batan görmüşəm,***
***Alıb adamlardan ağlı, kamalı,***
***Ah, bu dünya malı, bu dünya malı.***

***Axı, sən kiminsən, kimin?-Heç kimin,***
***Bu toy kiminkidi, gedən köç kimin?***
***Dərdindən çöllərə düşənlər min-min,***
***Səni sevənlər var Məcnun misalı,***
***Ah, bu dünya malı, bu dünya malı.***

Fəxrəddin Teyyubun bütün şeirləri hecada yazılıb və yeddilik, səkkizlik, onbirlik ölçülərindədir. Bu mənada müxtəliflik nəzərə çarpmır, amma bunu ona irad tutmaq olmaz. Təki hər şeirində nəsə təzə söz deyə bilsin, təki dilimizin zərifliyini, incəliyini, emosionallığını itirməsin. Məlum məsələdir ki, şeirin hansı vəzndə, hansı ölçüdə yazılması əsas şərt deyil, əsas odur ki, bu şeirdə poeziya havası duyulsun, qəlbin çırpıntıları ağlın hökmü ilə vəhdət təşkil eləsin, nə yazıram, nədən yazıram necə yazıram formulesi ilə bir araya gəlsin.

Öncə dedik ki, Fəxrəddin Teyyubun şeirləri eyni səviyyədə deyil və gizlətmək lazım deyil ki, bu kitabda onun yaxşı şeirləri ilə müqayisədə nisbətən aşağı səviyyəliləri də var. Xüsusilə, bəzi ithaf şeirləri, qohumlara, yaxın dostlara həsr olunan şeirlər bu qəbildəndir. Fəxrəddin Teyyub əgər bu poeziya meydanında duruş gətirmək istəyirsə, bir az da mövzularının rəngarəngliyinə diqqət yetirməlidir. Həyatın, gerçəkliyin bir sıra problemləri şeirlərində əks olunmalıdır, günün reallıqlarını şeirə daha çox gətirməlidir. Bəzi standart ifadələrdən, təşbehlərdən də imtina etməlidir. O, bir şeirində yazır ki: "Söz Tanrıdan aşağıdı, Qəlbin gözü, işığıdı. Söz şairin uşağıdı, Fərlisi var, fərsizi var". Ona görə də, sözün fərlisinə, oxucuda təzə duyğu yaradan gözəlliklərinə daha çox üz tutmalıdır.

Fəxrəddin Teyyubun "Kölgəm mənim yol yoldaşım" şeirlər kitabı bizdə bu şairin gələcək yazılarına ümidi artırır. Ən başlıcası odur ki, Fəxrəddin Teyyub səmimi şairdir və bu səmimiyyət nə qədər davam eləsə, necə deyərlər, uzunömürlü olsa, onun şeirləri də o qədər uzunömürlü olacaq. Səmimiyyət və bir də ustalıq! Uğurlar arzulayaq bu yolda ona...